Təsisçi: Daşkəsən Rayon İcra Hakimiyyəti və qəzetin jurnalist kollektivi

Qəzet 1933-cü ildən çıxır | № 4 (5817) | May 2018-ci il | Qiyməti 60 qəpik

PREZİDENT İLHAM ƏLİYEV: "BİZ HEÇ VAXT İMKAN VERMƏYƏCƏYİK Kİ, TARİXİ TORPAĞIMIZDA İKİNCİ ERMƏNİ DÖVLƏTİ YARADILSIN. ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİNİN BİR YOLU VAR, O DA AZƏRBAYCANIN BEYNƏLXALQ BİRLİK TƏRƏFİNDƏN TANINAN ƏRAZİ BÜTÖVLÜYÜNÜN BƏRPASIDIR".

GÜCLÜ ORDU MÜSTƏQİLLİYİMİZİN ƏSASIDIR, TƏHLÜKƏSİZLİYİMİZİN QARANTIDIR. AZƏRBAYCANDA TƏHLÜKƏSİZLİK TAM TƏMİN EDİLİBDİR. AZƏRBAYCAN BU GÜN MÜSTƏQİL ÖLKƏ KİMİ DÜNYA MİQYASINDA ƏN SABİT ÖLKƏLƏRDƏN BİRİDİR. BİZ GÜCLÜ İQTİSADİYYAT YARATMIŞIQ. BİZ TƏBİİ RESURSLARIMIZDAN ÇOX BÖYÜK SƏMƏRƏ İLƏ İSTİFADƏ ETMİŞİK VƏ İQTİSADİ MÜSTƏQİLLİK SİYASİ MÜSTƏQİLLİYİMİZİN ƏSAS AMİLİDİR. İQTİSADİ MÜSTƏQİLLİK OLMADAN SİYASİ MÜSTƏQİLLİKDƏN SÖHBƏT GEDƏ BİLMƏZ. GÜCLÜ İQTİSADİ ƏSASLAR GƏLƏCƏKDƏ DƏ İMKAN VERƏCƏK Kİ, AZƏRBAYCAN HEÇ KİMDƏN ASILI OLMAYARAQ UĞURLA İNKİŞAF ETSİN.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
BAKI ŞƏHƏRİ, 28 MAY 2018-Cİ İL

DAŞKƏSƏN RAYONUNDA 2018-Cİ İLİN BİRİNCİ RÜBÜ UĞURLARLA YEKUNLAŞIB

Daşkəsən Rayon İcra Hakimiyyətinin iclas zalında "Daşkəsən rayonunda 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr"ə həsr olunmuş ümumrayon hesabat yığıncağı aprelin 18-də keçirilib.

Yığıncağı giriş nitqi ilə Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev açaraq hesabat məruzəsi ilə çıxış edib. O, məruzəsində deyib:

- Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin son on beş il ərzində uğurlu siyasətinin nəticəsində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edib, əhalinin rifahı yüksəlib, xüsusilə ölkəmizdəki sabitlik, sürətli inkişaf və beynəlxalq miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artıb, yeni-yeni nailiyyətlər, qələbələr qazanılıb. Ölkəmiz regionda lider dövlətə çevrilmişdir.

Azərbaycan xalqının 2018-ci ilin 11 aprel seçkisində seçimi son on beş ildə cənab Prezident İlham Əliyevin uğurlu siyasətinə, ölkədə sabitliyə, inkişaf və tərəqqiyə verilən qiymətin bariz təzahürüdür (seçkilərdə ölkə vətəndaşlarının 74,3 faizi iştirak etmiş, onlardan 86,02 faizi cənab İlham Əliyevin namizədliyini dəstəkləmiş, səs vermişlər).

Aprelin 11-də keçirilmiş Prezident seçkisi bir çox beynəlxalq təşkilatlar və müşahidəçilər tərəfindən yüksək qiymətləndirilmiş və iqtidarın demokratiya, qanunun aliliyi, insan hüquqlarına hörmət, hüquqi demokratik dövlətin əsaslarını möhkəmləndirilməsi kursunun dəyişməzliyinə sədaqətini əyani şəkildə nümayiş etdirmişdir.

Prezident seçkilərində daşkəsənlilər yüksək fəallıq göstərmişlər. Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, müstəqil Azərbaycan Respublikasını işıqlı gələcəyə aparan cənab İlham Əliyevə sevgilərini bir daha nümayiş etdirərək seçkidə iştirak etmiş seçicilərin 85,56 faizi səs vermişdir.

Prezident seçkilərində möhtərəm cənab İlham Əliyevin qazandığı bu parlaq, inamlı qələbə münasibətilə Daşkəsən şəhərində aprelin 12-də geniş konsert-mitinq tədbir keçirilmişdir.

2018-ci ilin birinci rübü də əvvəlki illər kimi sosial-iqtisadi cəhətdən respublikamız üçün uğurlu illərdən biri olmuşdur.

Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə aprelin 9-da Prezident sarayında, Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında birinci rübün sosial-iqtisadi inkişafı geniş təhlil edilərək, qarşıda duran vəzifələr göstərilmişdir.

Ümummilli lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu daxili və xarici siyasət, həyata keçirilən tədbirlər nəticəsində 2018-ci ilin birinci rübündə də Azərbaycan Respublikasında dinamik inkişaf davam etmiş, beynəlxalq aləmdə ölkəmizin nüfuzu daha da artmış, mövqeləri daha da möhkəmlənmişdir.

Möhtərəm Prezident cənab İlham Əliyev iclası giriş nitqi ilə açmışdır.

O demişdir:

..." Hər il olduğu kimi, bu il də aprel ayının birinci ongünlüyündə biz ilin birinci rübünün sosial-iqtisadi yekunlarını müzakirə edirik, gələcək planlar haqqında danışırıq. Mən ilin əvvəlində demişdim, əminəm ki, 2018-ci il də ölkəmiz üçün uğurlu il olacaq və birinci rübün yekunları bu sözləri təsdiqləyir. Azərbaycan bu müddət ərzində uğurla inkişaf etmişdir, qarşımızda duran bütün vəzifələr artıqlaması ilə yerinə yetirilir, ölkəmiz güclənir, hərtərəfli inkişaf edir. Əminəm, biz bu müsbət dinamikanı ilin sonuna qədər saxlayacağıq, bunu daha da artıracağıq ki, ölkəmiz 2018-ci ili də uğurla başa vursun".

Cənab Prezident çıxışında 2018-ci ilin birinci rübündə Bakı şəhərində bir sıra mühüm beynəlxalq tədbirlərin keçirilməsini xüsusi vurğulamışdır.

Eyni zamanda cənab Prezident qeyd etmişdir ki, ...Birinci rübdə sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə təxminən 10 faiz artmışdır. Bu da ölkəmizdə son illər ərzində aparılan sənayeləşmə siyasətinin nəticəsidir. Qeyri-neft sənayemiz 10 faiz artıb və hesab edirəm ki, bu, rekord göstərici sayıla bilər. Kənd təsərrüfatı 4,2 faiz artıb. Bu artımın tərkibində biz daha çox bitkiçiliyin artımını görürük, 50 faizdən çox artmışdır. Bu da son illər ərzində ənənəvi və digər texniki məhsulların yetişdirilməsi ilə bağlıdır. Bu da çox müsbət göstəricidir.

Cənab Prezident daha sonra demişdir: …"Ölkəmizdə ümumi inkişaf dinamikası çox müsbətdir. Ölkəmiz dünyada daha çox tanınır və turistlərin sayı getdikcə artır, birinci rübdə 12,5 faiz artmışdır. Əgər biz əvvəlki illəri də nəzərə alsaq görərik ki, bu dinamikada ardıcıllıq vardır. Bunun da bir çox səbəbləri var - Azərbaycanda hökm sürən sabitlik, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi, tarixi abidələrimiz, infrastruktur, 6 beynəlxalq aeroport, yollar, otellər. Əlbəttə ki, ölkəmizdə keçirilən beynəlxalq tədbirlər Azərbaycanı dünyaya təqdim edir. Onların arasında Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Eurovision" müsabiqəsi və Formula 1 yarışları xüsusi rol oynayır. Çünki Formula 1 yarışlarının tamaşaçı auditoriyası yarım milyard insana bərabərdir. Bu yarışlar şəhərimizin mərkəzində keçirilir. Biz onu xüsusilə belə təşkil etmişik ki, şəhərimiz göstərilsin, bu yarışa baxan azarkeşlər təkcə o yarışı görməsinlər, şəhərimizin gözəlliyini, müasirliyini görsünlər və daha çox Azərbaycana turist kimi gəlsinlər.

Bir sözlə, birinci rübün yekunları müsbətdir. Əlbəttə ki, üç ay ərzində daha bir sıra önəmli məsələlər öz həllini tapıb. Bir giriş sözümdə onların hamısını əhatə etmək mümkün deyil. Sadəcə olaraq, mən əsas məsələlər ətrafında fikirlərimi xalqa bildirdim. Azərbaycan xalqı bilir ki, Nazirlər Kabinetinin müntəzəm olaraq keçirilən toplantıları həm praktiki məsələlərin həllinə xidmət edir, eyni zamanda, bu, görülən işlər haqqında xalqa verilən hesabatdır"...

Respublikamızın digər rayonlarında olduğu kimi Daşkəsən rayonunda da 2018-ci ilin birinci rübü ərzində bir çox uğurlu işlər və nailiyyətlər əldə olunmuşdur.

Belə ki, iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilin eyni dövrünə nisbətən müxtəlif sahələr üzrə xeyli artmışdır.

Rayon ərazisində bir sıra tikinti, təmir-bərpa, yenidənqurma, abadlıq-quruculuq işləri görülmüşdür və hazırda da həmin işlər davam etdirilməkdədir.

Azərbaycan Hökuməti ilə İslam İnkişaf Bankı tərəfindən maliyyələşən "Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması" işlərində son tamamlama işləri yerinə yetirilir. Artıq Daşkəsən şəhərinin bir hissəsi ekoloji cəhətdən təmiz və fasiləsiz olaraq içməli su ilə təmin olunur.

Möhtərəm Prezident cənab İlham Əliyev "Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 mart tarixli 2754 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Sərəncam imzalamış, həmin Sərəncama əsasən Daşkəsən şəhəri Alunitdağ qəsəbəsinin içməli su ilə təminatın yaxşılaşdırılması nəzərdə tutulan yaşayış məntəqələrinin siyahısına əlavə olunmuş və həmin sahə üzrə müəyyən işlər görülmüşdür.

Şahvələdli kənd ümumi orta məktəbində yeni modul tipli məktəb binası quraşdırılır.

Azərbaycan Respublikası Prezidentinin Ağstafa, Daşkəsən, Gədəbəy, Göygöl, Tovuz və Şəmkir rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında 5 aprel 2018-ci il tarixli Sərəncamı olmuşdur. Sərəncama əsasən Daşkəsən rayonunun Almalı kəndində və Daşkəsən qəsəbəsində hər birində 56 şagird yerlik, Gurbulaq kəndində isə 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması nəzərdə tutulmuşdur.

2018-ci ildə Daşkəsən şəhərində 7 çoxmərtəbəli yaşayış binasının təmiri nəzərdə tutulmuş və artıq həmin işlərin icrasına, eyni zamanda Daşkəsən şəhərində tikinti-təmir, abadlıq işlərinə, o cümlədən istinad divarlarının təmir işlərinə başlanılmışdır. Hazırda həmin işlər davam etdirilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında Daşkəsən şəhərində, Daşkəsən qəsəbəsində, Qabaqtəpə və Dəvrallı kəndlərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 4 fərdi yaşayış evinin və Fövqəladə Hallar Nazirliyinin xətti ilə Alunitdağ və Yuxarı Daşkəsən qəsəbələrində və Quşçu kəndində evləri qəza vəziyyətində olan vətəndaşlar üçün 3 fərdi yaşayış evinin tikintisinə başlanılmışdır.

Qeyd etmək istərdim ki, Daşkəsən şəhərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün yeni 36 mənzilli yaşayış binasının tikintisi üçün torpaq sahəsi ayrılmış, tezliklə həmin binanın tikintisinə başlanılacaqdır.

Kommunal Müəssisələr Kombinatının maddi texniki bazası möhkəmləndirilmiş, lakin şəhərin kənar küçələrinin təmizlənməsi, şəhərdən tullantıların yığılaraq daşınması və zərərsizləşdirilməsi sahəsində aidiyyəti üzrə əlavə tədbirlər görülməsinə ehtiyac vardır.

Bildiyiniz kimi 24 mart 2018-ci il tarixdə Daşkəsən rayonu ərazisində baş vermiş təbii fəlakət, güclü külək əsməsi - qasırğa nəticəsində Daşkəsən şəhərinin, qəsəbə və kəndlərin yaşayış, sosial və inzibati binalarının dam örtüklərinə, elektrik, rabitə təsərrüfatlarına, şəxsi minik avtomobillərinə olduqca ciddi ziyan dəymişdir. Rayonun daxili imkanları hesabına dəymiş ziyanların aradan qaldırılması üçün aidiyyəti üzrə işlər görülmüş və hazırda da həmin işlər davam etdirilir.

Novruz bayramı ərəfəsində Heydər Əliyev Fondunun hesabına Daşkəsən rayonu ərazisində yaşayan 422 aztəminatlı ailəyə bayram sovqatı paylanmışdır.

Birinci rüb ərzində rayon ərazisində bir sıra mədəni-kütləvi tədbirlər keçirilmişdir.

16 mart 2018-ci il tarixdə Daşkəsən şəhərinin Heydər Əliyev meydanında qədim, milli bayramımız olan Novruz bayramı minlərlə rayon sakininin iştirakı ilə yüksək səviyyədə keçirilmiş, rayon ərazisində olan "N" saylı hərbi hissənin əsgərlərinə bayram sovqatları verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə respublikamızın şəhər və rayonlarının ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən növbəti maarifləndirici tur-aksiyalara start verilmiş, Daşkəsən rayonundan 40 nəfər məktəbli "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində 26-29 mart 2018-ci il tarixlərdə Qəbələ-Şəki-Zaqatala marşrutunun iştirakçıları olmuşlar.

12 aprel 2018-ci il tarixdə Daşkəsən rayonunda növbəti həqiqi hərbi xidmətə çağırışçılar seçkilərlə əlaqədar keçirilən ümumrayon mitinqində böyük təntənə ilə yola salınmışlar.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli, 118 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramının tədbirlər planında Daşkəsən rayonuna aid 25 tədbir nəzərdə tutulmuşdur.

Bu tədbirlərin 5-i ölkə əhəmiyyətli, 3-ü Gəncə-Qazax iqtisadi rayonu və 17-si isə Daşkəsən rayonu bölmələrində qeyd edilmişdir.

Cari ilin yanvar ayının 29-da möhtərəm Prezident cənab İlham Əliyevin iştirakı ilə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans keçirilmişdir.

Konfransda cənab Prezidentin giriş və yekun nitqlərində Dövlət Proqramının icrası barədə hərtərəfli məlumat verilərək, perspektivlər müəyyənləşdirilmiş, mərkəzi və yerli icra hakimiyyəti orqanlarına aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr vermişdir. Hazırda həmin istiqamətdə müvafiq işlər görülür.

Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən cari ilin keçən dövrü ərzində rayona özəl investisiyaların cəlb olunması sahəsində bir sıra işlər görülmüşdür. Rayona investisiya cəlb olunması məqsədilə ərazidə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, sənaye, energetika, tikinti, ticarət, nəqliyyat, telekommunikasiya və poçt, maliyyə və bank, turizm və digər xidmət sahələri üzrə mövcud vəziyyət, məlumatlar kütləvi informasiya vasitələri ilə hərtərəfli təşviq olunmuşdur.

İş adamları, sahibkarlar və aidiyyəti qurumlarla birgə investisiyaların qoyulması, müvafiq layihələrin işlənib hazırlanması məsələləri geniş təhlil edilərək tətbiq olunması daha məqsədəuyğun olan təkliflər müəyyənləşdirilərək özəl investisiya qoyuluşu üzrə investisiya qoymaq istəyən hüquqi və fiziki şəxslərə lazımi köməklik göstərilməklə əlverişli şərait yaradılması nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi İnkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda demişdir:

..."Ərzaq təhlükəsizliyi məsələləri daim diqqət mərkəzindədir. Son illərdə bu istiqamətdə irəliləyiş var, amma hələ ki, bizi tam qane edə bilməz. Ona görə bu məsələyə xüsusi diqqət göstərilməlidir. Deməli, biz kənd təsərrüfatının ənənəvi olan və müəyyən dərəcədə unudulmuş texniki sahəsini inkişaf etdirməyə o vaxt başlamışıq ki, ərzaq təhlükəsizliyi məsələlərinə güclü təkan verildi. Ancaq biz yenə də bu məsələ ilə bağlı çox ciddi işləməliyik"...

Rayonda 3 kartofçuluq üzrə toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Toxumçuluq təsərrüfatlarının artırılması üçün işlər davam etdirilir.

Heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə 1 kənddə (Quşçu kəndində) süni mayalama məntəqəsi fəaliyyət göstərir. Süni mayalama texnikləri tərəfindən 2018-ci ilin I rübü ərzində 72 baş heyvan süni mayalandırılmışdır. Mayalandırılmış heyvanlardan 65 baş bala alınmışdır. Gələcəkdə məntəqələrin sayının artırılması üçün işlər davam etdirilir.

Daşkəsən rayonu ərazisində 2018-ci il ümumilikdə yaylaq mövsümünün başlanması ilə əlaqədar, o cümlədən, baytar-nəzarət məntəqəsinin təşkil edilməsi barədə Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən 14 mart 2018-ci il tarixli 16 nömrəli sərəncam verilmişdir. Yaz-yay mövsümlərinin başlanmasına uyğun olaraq yaylaqlardan və örüş otlaq sahələrindən səmərəli istifadə edilməlidir.

Qeyd etmək lazımdır ki, rayonda torpaqlardan təyinatı üzrə istifadəsinə görə müəyyən nöqsanlar mövcuddur. Həmin nöqsanların aradan qaldırılması üçün lazımi tədbirlər görülməlidir. Rayonun aidiyyəti üzrə qurumları bu sahədə bütün lazımı tədbirləri yerinə yetirməlidirlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə 2018-ci ilin fevral ayının 10-dan 11 may 2018-ci il tarixə kimi ölkədə əhalinin sağlamlığını təmin etmək üçün tibbi müayinə günləri təşkil edilmişdir. Həmin tapşırığa əsasən Daşkəsən rayon mərkəzi xəstəxanasında müntəzəm olaraq əhali qrafik əsasında tibbi müayinədən keçirilir. İndiyədək 42 yaşayış məntəqəsinin əhalisi və rayonun idarə, müəssisə və təşkilatların işçiləri tibbi müayinələrdən keçirilmişdir. Bu müddət ərzində 17541 nəfər tibbi müayinədən keçmiş, 78 nəfər müxtəlif xəstəliklərdən Bakı şəhərinə göndərilmiş, 103 nəfər Daşkəsən rayon mərkəzi xəstəxanasının stasionar müalicəsinə cəlb olunmuş, 250 nəfərə isə ambulator müalicə yazılmışdır. Hazırda bu işlər davam etdirilməkdədir. Tibbi müayinədən keçən Daşkəsən rayon sakinləri onların sağlamlığına göstərdiyi diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildirirlər.

Bildiyiniz kimi, 53 bənddən ibarət olan "Yeni Daşkəsən" layihəsi Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən elmi əsaslarla işlənib hazırlanmış və 22 yanvar 2013-cü il tarixdə rayonun mətbu orqanı "Daşkəsən" qəzetində dərc edilmişdir. Bu proqram xarakterli mükəmməl layihə aidiyyəti üzrə nazirliklərə göndərilmiş, müsbət rəylər alınmış, layihənin həyata keçirilməsi üçün hələ 2013-cü ildən müvafiq tapşırıqlar verməklə bu məsələlərin həll olunması işlərinə başlanılmışdır.

2013-cü ildə Rayon İcra Hakimiyyəti tərəfindən hazırlanmış bu proqramla - "Yeni Daşkəsən" layihəsi ilə rayonun hərtərəfli sosial-iqtisadi inkişafı, kənd təsərrüfatının ayrı-ayrı sektorlarının - heyvandarlığın, arıçılığın, kartofçuluğun, toxumçuluğun, həmçinin turizmin inkişafı, yeni inzibati binaların, korpusların inşası, su, qaz, elektrik təchizatı, yol və körpülərin salınması məsələsi, ən əsası isə yeni iş yerlərinin açılıb işsizliyin aradan qaldırılması, sahibkarlara münbit şəraitin yaradılması, mövcud problemlərin həlli, o cümlədən də Daşkəsən rayonunun "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin bazasında yaradılması əsas götürülərək "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin, eləcə də "Alunit" İstehsalat sahəsinin yenidən müasir səviyyədə işə salınması əsas vəzifə kimi qarşıya qoyulmuşdur.

"Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin və "Alunit" İstehsalat sahəsinin müasir texniki avadanlıqlarla təchiz edilərək müasir formada işə salınması həm rayonda işsizliyin tamamilə aradan qaldırılmasına, həm cəbhə boyu zonada, ermənilərlə təmas xəttində yerləşən Daşkəsən rayon sakinlərinin daimi işlə təmin olunmasına hərtərəfli şərait yaradacaq, həm də uzun müddətli problemli məsələlər tam öz həllini taparaq Daşkəsən rayonu regionda inkişaf etmiş pilot bir rayona, sənaye mərkəzinə çevriləcəkdir.

"Azərbaycan Respublikasının Metallurgiya kompleksində sağlamlaşdırma və restrukturizasiya tədbirlərinin həyata keçirilməsi haqqında" möhtərəm Prezident cənab İlham Əliyevin 13 iyul 2016-cı il tarixli sərəncamı olmuşdur. Sərəncama əsasən, Azərbaycan Polad İstehsalı Kompleksinə daxil edilmiş "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyəti özəlləşdirməyə açıq elan olunmuş və bu məqsədlə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sərəncamına verilmişdir. Lakin müəssisənin bu günə kimi investisiya müsabiqəsi baş tutmamış, dolayı yollarla gecikdirilir. Çünki müəssisənin maliyyə təsərrüfat vəziyyətinin olduqca aşağı düşməsi ilə əlaqədar elektrik, qaz, su, vergi, Dövlət Sosial Müdafiə Fonduna olan yüksək məbləğdə borclarının yaranması işçilərin əmək haqlarının verilməsində maliyyə çətinlikləri, problemlər yaradırdı.

Rayon İcra Hakimiyyəti olaraq qazın, elektrikin, əmək haqlarının ödənilməsi məsələsini aidiyyəti üzrə nazirliklər qarşısında şəxsən mən qaldırdım və həllinə də nail olundu. Bu çətinliklərə baxmayaraq, istifadə olunmuş elektrik enerjisinə olan 139 min manat məbləğində borcunun ödənilməsi təşkil edilmiş və işçilərin əmək haqları da verilir.

Cari ilin yanvarın 29-da Bakı şəhərində Heydər Əliyev Mərkəzində möhtərəm Prezident cənab İlham Əliyevin iştirakı ilə keçirilən regionların sosial-iqtisadi inkişafı 3-cü Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda mən də çıxış edərək bildirdim ki, çox vacib və ciddi məsələ olan "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin özəlləşdirilməsi tezləşdirilsin, müəssisədəki problemlərin birdəfəlik həll edilməsinə maneçilik törədilməsin. Artıq bu sahədə müəyyən irəliləyiş hiss olunur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda bildirmişdir ki, ..."Bizdə qeyri-qida məhsulları üzrə birinci yerdə qızıldır. 2016-cı ildə 76 milyon dollarlıq, 2017-ci ildə 140 milyon dollarlıq qızıl satılıb"...

Sevindirici haldır ki, 2016-cı ilin iyul ayında fəaliyyətə başlayan "AzerGold" QSC qısa müddət ərzində bir sıra çox böyük əhəmiyyətli işlərin görülməsinə nail olmuşdur.

Belə ki, Daşkəsən rayonu ərazisində yerləşən Çovdar filiz emalı sahəsində müxtəlif təyinatlı təmir-tikinti işləri sayəsində yatağın fəaliyyəti bərpa edilmiş, optimallaşdırılmış, istehsalat 24 saatlıq iş rejiminə keçirilmiş, hasilat işlərinə başlanılmışdır.

Eyni zamanda hesabat ilində Azərbaycan Şəkər İstehsalat Birliyi İmişli Şəkər zavodunun Daşkəsən Əhəng daşı mədəni öz fəaliyyətini davam etdirmişdir.

2018-ci ilin I rübü ərzində Daşkəsən rayon Telekommunikasiya Qovşağı tərəfindən 64100 manat həcmində rabitə xidməti göstərilmişdir. Zəylik, Qaraqullar, Əhmədli, Yuxarı Daşkəsən, Quşçu, Bayan və Dəstəfur kənd ATS-lərində rabitənin keyfiyyətini daha da yaxşılaşdırmaq məqsədilə profilaktik işlər görülmüşdür. Rayon Telekommunikasiya Qovşağına yeni müasir avadanlıqların gətirilməsinə, sürətli internet istifadəçilərinin sayının artırılmasına və rayonun kəndlərində əhalinin internetdən istifadə etmələri üçün lazımi şəraitin yaradılmasına ehtiyac vardır.

Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun yenidən qurulması işlərinə başlanılmış və hazırda həmin işlər davam etdirilir.

2019-cu ildə Daşkəsən-Xoşbulaq-Astaf avtomobil yolunun yenidən qurulması üçün müvafiq sənədlər işlənib hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.

2018-ci ilin I rübü ərzində 31 nömrəli Yol İstismarı MMC tərəfindən yerli əhəmiyyətli avtomobil yollarının saxlanması və təmiri üzrə 231,1 min manatlıq iş görülmüşdür.

"Yeni Daşkəsən" ideyası rayonun yüksəlişindən və cənab Prezidentin yaratdığı inkişaf siyasətindən qaynaqlanır. Rayonun bütün daxili yollarının, körpülərin əsaslı təmiri üzrə Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən Respublika Nazirlər Kabinetinə, Baş Nazirə kompleks layihə təklifləri işlənib təqdim olunmuşdur.

Möhtərəm Prezident cənab İlham Əliyev Nazirlər Kabinetinin iclasında yekun nitqində qeyd etmişdir: "Bu il infrastruktur layihələri ilə bağlı bizim planlarımız çox böyükdür. İlin sonuna qədər ölkəmizdə qazlaşdırma 95 faizə çatmalıdır. "Şimal-2" elektrik stansiyasının tikintisi başa çatmalıdır. Bu, bizə təxminən 400 meqavata yaxın əlavə elektrik enerjisi verəcək. Biz indi elektrik enerjisini qonşu ölkələrə ixrac edirik. Bizdə çox gözəl ixrac potensialı yaradılıbdır. Ölkə daxilində bütün tələbat tam təmin edilir. Ancaq baxmalıyıq ki, bundan sonra bizə ümumiyyətlə nə qədər generasiya gücləri lazımdır. Ölkəmizin inkişafını, əhalinin artımını, sənayeləşmə prosesini nəzərə almalıyıq. Yəni, böyük inkişafı nəzərə alaraq baxmalıyıq ki, beş ildən, on ildən sonra bizə daxili istehlak üçün nə qədər elektrik enerjisi lazım olacaq. Bununla paralel olaraq, biz xarici bazarları təhlil etməliyik ki, beş ildən, on ildən sonra xarici bazarlara nə qədər enerji ixrac edəcəyik. Buna görə də addımlarımızı atmalıyıq ki, yeni stansiyalar tikilməlidir, yoxsa biz mövcud olan stansiyalarla kifayətlənməliyik? Biz mütləq alternativ enerji mənbələri yaratmalıyıq - külək, günəş, su elektrik stansiyaları tikməliyik. Yəni, bu sahədə çox ciddi təhlil aparılmalıdır və mənə təqdim edilməlidir.

İçməli su ilə bağlı layihələr uğurla gedir. Demək olar ki, bütün şəhərlərdə bu işlər ya icra edilib, ya da ki, icradadır. Hesab edirəm ki, bu da tarixi nailiyyətdir. Çünki indi Bakı şəhərinin 80 faizdən çoxu 24 saat içməli su ilə təmin edilir. Əlbəttə ki, bu rəqəm 100 faiz olmalıdır. Əminəm ki, biz buna da çatacağıq. Bütün bölgələrdə, bütün şəhərlərdə bu layihələr icra edilir, kəndlərin böyük hissəsində də daim diqqət mərkəzində olmalıdır."

Hesabat ilində Daşkəsən rayonunda enerji daşıyıcılarından və içməli sudan səmərəli istifadə edilməsi və onların dəyərinin ödənilməsi üzrə Rayon İcra Hakimiyyəti Başçısı yanında yaradılmış qərargahın fəaliyyəti daha da gücləndirilmişdir.

Əhalinin elektrik enerjisi, qaz və içməli su ilə təchizatı vəziyyətinin yaxşılaşdırılması məqsədilə bir sıra təmir-bərpa, yenidənqurma işləri həyata keçirilmişdir.

Daşkəsən Elektrik Şəbəkəsi tərəfindən zədələnmiş 1 ədəd 250 kilovoltluq transformator dəyişdirilmiş, 6 ədəd 10-6/0, kilovoltluq yarımstansiyada və 11,7 kilometr elektrikverici xətlərdə təmir işləri aparılmış, transformatorlara və yağ tutumlu avadanlıqlara 360 kiloqram transformator yağı əlavə olunmuşdur.

0,4 kilovoltluq şəbəkənin kabel xətti ilə çəkilməsi üçün 244 ədəd özünü daşıyan izolyasiyalı naqil (ÖİN) üçün metal dayaq basdırılmış, müxtəlif markalı 10050 metr ÖİN kabel çəkilmişdir.

35/6 kilovoltluq "Daşkəsən Filizsaflaşdırma" ASC-yə məxsus yarımstansiyadan çıxan 6 kilovoltluq Xoşbulaq və 6 kilovoltluq Dəstəfur hava xətlərinin Elektrik şəbəkəsinə məxsus 110/35/6 kilovoltluq Daşkəsən yarımstansiyasından qidalandırılması üçün tikintisi dayandırılmış I və II Əhmədli hava xətlərinin tikintisi davam etdirilmiş, 11,5 kilometr ikidövrəli hava xətti cari ilin fevralın 5-də şəbəkəyə qoşulmuşdur. 6 ədəd KRN çala quraşdırılmış və çıxış xətləri üçün 270 metr kabel çəkilmiş, 3 ədəd mufta bağlanaraq 6 kilovoltluq Xoşbulaq, 6 kilovoltluq Dəstəfur hava xətlərinin 110/35/6 kilovoltluq Daşkəsən elektrik yarımstansiyasından qidalandırılması təmin edilmişdir.

Elektrik şəbəkəsinin rəhbərliyi şəbəkənin müasir tələblər səviyyəsində qurulmasını, elektrik enerjisi dəyərinin tam ödənilməsini təmin etməli və qeyri-balans itkisinin səbəblərini müəyyənləşdirərək bu sahədə daha ciddi tədbirlər görülməsini həyata keçirməlidir.

Hazırda rayonun 49 yaşayış məntəqəsindən cəmi 8 yaşayış məntəqəsi təbii qazla təmin olunur.

2018-ci ilin I rübü ərzində rayonun Xoşbulaq kəndində 32 abonent təbii qazla təmin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 5 mart 2018-ci il tarixli 3749 nömrəli Sərəncamı ilə təsdiq edilmiş 2018-ci ildə qazlaşdırılması nəzərdə tutulan yaşayış məntəqələri və ərazilərin siyahısında Daşkəsən rayonu üzrə Quşçu və Bayan kəndləri nəzərdə tutulmuşdur.

Qaz Xidmət Sahəsi üzrə 2018-ci ilin I rübü ərzində əhaliyə verilən təbii qazın dəyərinin ödənilməsi 101%, ümumi ödəmə üzrə isə göstərici 81,3% olmuşdur. Rayonda istehlakçıların təbii qazla təmin olunmasında mövcud problemlərin həll edilməsi üçün Qaz Xidmət Sahəsinin rəhbərliyi aidiyyəti üzrə lazımi tədbirlər görməlidir.

Daşkəsən rayon Sukanal idarəsinin fəaliyyətində bir sıra çatışmazlıqlar mövcuddur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə köməklik göstərirlər.

Vətəndaşların qəbulu və müraciətlərinə baxılması məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova 16 aprel 2018-ci il tarixində Daşkəsən şəhərində Daşkəsən, Gədəbəy, Şəmkir, Tovuz, Ağstafa və Qazax rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qarşımızda çox məsul və şərəfli vəzifələr durur. Aprelin 9-da Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş iclasında müxtəlif sahələrdə mövcud vəziyyəti hərtərəfli təhlil edərək qarşıda duran vəzifələri göstərən möhtərəm Prezidentimiz cənab İlham Əliyev yekun nitqində demişdir: "...Gələn ay biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edəcəyik. Mən bu ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etmişəm. İlin əvvəlindən biz bu gözəl tarixi qeyd edirik. Bu tarixə nəzər salarkən görürük ki, Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü, indiki qədər qüdrətli dövlət olmamışdır. Bunu biz yaratmışıq. Azərbaycan xalqının iradəsi, Azərbaycan dövlətinin siyasəti bu gün ölkəmizin inkişafı üçün əsas amildir.

Mən şübhə etmirəm ki, Azərbaycan bundan sonrakı dövrdə də uğurla inkişaf edəcək. Bizim bütün planlarımız həyata keçirilir. Verdiyimiz bütün vədlər yerinə yetirilir. Son 15 il ərzində bir dənə də yerinə yetirilməyən vəd olmamışdır. Bu gün Azərbaycanın reallıqları onu göstərir ki, biz düzgün yoldayıq. Bu yolla uğurla gedəcəyik ".

İcazə verin, Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevi bir daha əmin edim ki, bundan sonra da qarşıda duran vəzifələrin layiqincə yerinə yetirilməsi üçün daha yüksək əzmkarlıq göstərərək, bütün qüvvəmizi səfərbər edib, var gücümüzlə çalışacağıq.

Yaşasın müstəqil Azərbaycan!

Müstəqil Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə eşq olsun!

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyevin dərin məzmunlu geniş nitqindən sonra məruzə ətrafında rayon üzrə Maliyyə İdarəsinin rəisi Natiq Zeynalov, RİHB-nin Daşkəsən şəhər İƏDÜN-si Nüsrət Vəliyev və digərləri çıxışlar etmiş, qarşıda duran vəzifələrin icrasından danışmış, daşkəsənlilərə göstərilən diqqət və qayğıya görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildirmişlər.

Yığıncaqda müzakirə olunan məsələlərlə bağlı qərar qəbul edildikdən sonra toplantı iştirakçıları adından ölkə Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olunmuşdur.

Elmar Vüqarlı
Azərbaycan Yazıçılar Birliyinin üzvü

DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV AYRI-AYRI GÜNLƏRDƏ RAYONUN YAŞAYIŞ MƏNTƏQƏLƏRİNDƏ VƏTƏNDAŞLARIN NÖVBƏTİ SƏYYAR QƏBULLARINI KEÇİRİB

MAYIN 15-DƏ DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV TƏSDİQ EDİLMİŞ QRAFİKƏ UYĞUN OLARAQ MOLLAHƏSƏNLİ KƏNDİNDƏ VƏTƏNDAŞLARIN SƏYYAR QƏBULUNU KEÇİRİB.



Səyyar qəbulda rayonun hüquq-mühafizə orqanlarının, səhiyyə, təhsil, mədəniyyət və xidmət təşkilatlarının rəhbərləri, ərazinin icra nümayəndəsi, bələdiyyə sədri və kənd sakinləri iştirak ediblər.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev giriş nitqində möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hər bir guşəsində olduğu kimi Daşkəsən rayonun da bütün sahələrində inkişafın olduğunu və genişmiqyaslı abadlıq-quruculuq işlərinin aparıldığını qeyd edərək sakinlərin rifahının daha da yaxşılaşması istiqamətində məqsədyönlü tədbirlərin daim həyata keçirildiyini bildirib.

Qəbulda çıxış edən kənd sakinləri görülən işləri müsbət qiymətləndirmiş, kənd ərazisində nasaz elektrik dirəklərinin və naqillərinin dəyişdirilməsi, kənddə tibb məntəqəsinin açılması, kənd avtomobil yollarının asfaltlaşdırılması, Əhmədli kəndinə qaz xəttinin çəkilməsi və şəxsi məsələlərə dair müraciətlər ediblər.

Kənd sakinlərini dinləyən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev səsləndirilən müraciətlərin yerində araşdırılaraq həll olunması məqsədilə aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə öz tövsiyə və tapşırıqlarını veribdir. Qəbulda sakinləri maraqlandıran digər məsələlər barədə də söhbətlər aparılıbdır.

Kənd sakinləri hər zaman göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildiriblər.

MAYIN 16-DA NÖVBƏTİ SƏYYAR QƏBUL ALUNİTDAĞ QƏSƏBƏSİNDƏ KEÇİRİLİB.

Alunitdağ qəsəbə tam orta məktəbinin qarşısında açıq havada baş tutan qəbulda Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev, aparatın şöbə müdirləri, məsul işçiləri, hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların, xidmət sahələrinin rəhbərləri və qəsəbə sakinləri iştirak ediblər.

Qəsəbə sakinləri ilə görüşü giriş sözü ilə açan Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev keçirilən səyyar qəbulların başlıca məqsədinin ortaya çıxan problemlərin yerində öyrənilməsi, onların həlli istiqamətində kompleks addımların atılması olduğunu qeyd edib.

Belə görüşlərin ölkə Başçısı çox hörmətli cənab İlham Əliyevin tapşırığı ilə rayonda mütəmadi olaraq keçirildiyini bildirən Əhəd Abıyev möhtərəm Prezidentimiz cənab İlham Əliyevin vətəndaşların müraciətlərinə həssas münasibət göstərmək barədə tapşırıqlarının daim diqqət mərkəzində saxlanıldığını deyib.



Əvvəlcə son illər respublikamızda və rayonumuzda görülmüş işlər barədə geniş məlumat verən Əhəd Abıyev ötən dövr ərzində rayonun Alunitdağ qəsəbəsində də xeyli abadlıq və quruculuq işlərinin aparıldığını, sakinlər tərəfindən qaldırılan problemlərin həlli istiqamətində mühüm addımların atıldığını diqqətə çatdırıb.

Rayon rəhbəri xüsusilə vurğulayıb ki, son illərdə Alunitdağ qəsəbə kənd tam orta məktəbi yenidən təmir edilib, qəsəbənin çoxmərtəbəli yaşayış binalarının dam örtükləri yenisi ilə əvəzlənib, mənzillərə içməli su xətləri çəkilib, elektrik verilişinin və qaz təchizatının vəziyyəti daha da yaxşılaşdırılıb. Ən əsası isə minlərlə işçinin çalışacağı "Alunit" İstehsalat sahəsinin yenidən işə salınması istiqamətində çox ciddi nailiyyətlər əldə edilib.

Daha sonra Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev sakinlərin müraciətlərini dinləyib.

Qəsəbə sakinlərinin müraciətləri rayon mərkəzindən qəsəbəyə gələn avtomobil yolunun təmiri, yeni çəkilmiş su xəttinin tezliklə istifadəyə verilməsi, qəsəbə sakinlərinin mal-qarasının otarılması üçün örüş sahəsinin artırılması, xeyir-şər evinin dam örtüyünün təmiri və digər şəxsi məsələlərlə bağlı olmuşdur.

Hər bir sakinin probleminə diqqətlə yanaşan Əhəd Abıyev vətəndaşların müraciətlərinin araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun olaraq həllinə dair aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verib.

Qəbulda qaldırılan məsələlərin bir qismi yerindəcə həll edilib.

Sakinlər yerlərdə müraciətlərə baxılması üçün yaradılan şəraitdən razılıq edərək göstərdiyi ali diqqət və qayğıya görə möhtərəm Prezident cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

MAYIN 23-DƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ NÖVBƏTİ SƏYYAR QƏBULU ƏMİRVAR KƏNDİNDƏ KEÇİRİLİB.

Əmirvar kənd tam orta məktəbində baş tutan qəbulda Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev, aparatın şöbə müdirləri, məsul işçiləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların, xidmət sahələrinin rəhbərləri və sakinlər iştirak ediblər.

Kənd sakinləri ilə növbəti görüşü giriş nitqi ilə açan Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev vətəndaşların səyyar qəbullarının məqsədinin yerlərdə ortaya çıxan problemlərin öyrənilməsi, onların həlli istiqamətində operativ kompleks addımların atılması olduğunu qeyd edib. Belə görüşlərin ölkə Başçısı cənab İlham Əliyevin tapşırığı ilə rayonda mütəmadi olaraq keçirildiyini bildirən Əhəd Abıyev vətəndaşların müraciətlərinə həssas münasibət göstərmək barədə tapşırıqların daim diqqət mərkəzində saxlanıldığını deyib.

Son illər respublikamızda və Daşkəsən rayonunda görülmüş işlər barədə geniş məlumat verən Əhəd Abıyev rayonun Əmirvar kənd inzibati ərazi vahidliyində də xeyli abadlıq, quruculuq, təmir-bərpa işlərinin aparıldığını, bütün potensial imkanlar nəzərə alınmaqla bir çox layihələrin uğurla icra olunduğunu, sakinlər tərəfindən qaldırılan problemlərin həlli istiqamətində daim tədbirlərin görüldüyünü diqqətə çatdırıb.

Rayon rəhbəri deyib ki, ötən dövrlər ərzində 80 şagird yerlik Əmirvar-Əhmədli kənd ümumi orta məktəbi müasir formada yenidən tikilmiş, 360 şagird yerlik Əmirvar kənd tam orta məktəbinin binası isə əsaslı surətdə təmir edilmişdir.

Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev çıxışında vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq 24,5 km uzunluğunda olan Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun yenidən qurulması işləri hazırda böyük vüsətlə yüksək səviyyədə davam etdirilir və avtomobil yolu üzərində hər birinin uzunluğu 12 metr olan 2 yeni avtomobil körpüsünün inşası və zəruri nöqtələrdə 40 ədəd yeni suötürücü dəmir-beton boruların tikintisi aparılır.

Əhəd Abıyev onu da deyib ki, 2 hərəkət zolaqlı, hərəkət hissəsi 6 metr olan Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun tikintisi ilə vətəndaşların gediş-gəlişi, yük və sərnişin daşınması daha da asanlaşacaq, bu sahədə olan problemi tam öz həllini tapacaq, yolboyu 9 yaşayış məntəqəsində yaşayan 3 mindən artıq vətəndaşın həyat şəraitinin yaxşılaşmasına birbaşa təsir göstərən kənd təsərrüfatının ayrı-ayrı sektorları inkişaf edəcəkdir. Bununla yanaşı, yeni tikilən avtomobil yolu ən əsası bölgədə turizmin inkişafına geniş imkanlar yaradacaqdır.

Daha sonra Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev istər şəxsi, istərsə də kəndlə bağlı müraciəti və təklifi olan sakinlərə öz müraciətlərini etmələrini xahiş edib. Sakinlər təkliflərini səsləndiriblər.

Kənd sakinlərindən çıxış edənlər müraciətlərində kəndə təbii qaz xəttinin çəkilməsinin, tibb məntəqəsinin inşasının, EVX-lərinin SİP kabellə əvəz olunmasının, genişzolaqlı internet xəttinin çəkilməsinin və digər problemlərin həllinə köməklik göstərilməsini xahiş ediblər.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurumların rəhbərlərinə öz tapşırıqlarını verib. Müraciətlərdə səsləndirilən problemlərin əksəriyyəti yerindəcə həll edilib, müvafiq tədbirlər görülüb.

Sakinlər rayonda, o cümlədən Əmirvar kəndində gedən abadlıq, quruculuq, əsaslı yenidənqurma işlərinə, xüsusilə yeni yolun tikintisinə görə ölkə Prezidenti cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

Vətəndaşların səyyar qəbulundan sonra Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun yenidən qurulması işləri ilə tanış olub.

NÖVBƏTİ SƏYYAR QƏBUL MAYIN 30-DA QABAQTƏPƏ KƏNDİNDƏ OLUB.

Açıq havada keçirilən qəbul-görüşdə Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev, rayonun hüquq-mühafizə orqanlarının, səhiyyə, təhsil, mədəniyyət, digər xidmət təşkilatlarının rəhbərləri, ərazinin icra nümayəndəsi, bələdiyyə sədri və kənd sakinləri iştirak ediblər.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev görüşün əvvəlində ölkəmizin sürətli sosial-iqtisadi inkişafından, eləcə də möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müvafiq tapşırıq və tövsiyələrinə uyğun olaraq Daşkəsən rayonunda həyata keçirilən irimiqyaslı sosial infrastruktur layihələrdən, əhalinin məşğulluğunun təmin olunması məqsədi ilə yaradılmış münbit şəraitdən, abadlıq, quruculuq, yenidənqurma işlərindən geniş söz açıb.

Rayon rəhbəri çıxışında xüsusilə qeyd edib ki, Qabaqtəpə kəndi ərazisində tikilmiş hər birinin ümumi uzunluğu 28.4 m, eni 11 m, avtomobillərin hərəkət hissəsi 8 m olan müasir tipli 2 ədəd körpü 2015-ci ilin 24 dekabrında - möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ad günündə sakinlərin istifadəsinə verilmişdir. Vaxtilə hələ sovetlər dövründən bu körpülərin olmaması səbəbindən yaz-payız fəsillərində çay daşqınlarına və sel sularına görə yaşayış məntəqələri arasında nəqliyyatın hərəkətində və insanların gediş-gəlişində böyük çətinliklər yaranırdı. Çox sevindirici haldır ki, bu körpülərin istifadəyə verilməsi ilə həmin problemlər yüksək səviyyədə tam öz həllini tapmışdır. Hazırda isə Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun əsaslı surətdə yenidənqurma işləri davam etdirilir. 2019-cu ildə Daşkəsən-Xoşbulaq-Astaf avtomobil yolunun yenidən qurulması üçün müvafiq sənədlər işlənib hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.

Əhəd Abıyev bildirib ki, Güneykənd kəndində 56 şagird yerlik modul tipli yeni məktəb binasının tikintisi artıq başa çatdırılmışdır. Eyni zamanda da əhalinin elektrik enerjisi, rabitə və içməli su təminatı daim diqqətdə saxlanmaqla günü-gündən yaxşılaşdırılmaqdadır.

Qəbulda çıxış edən kənd sakinləri görülən işləri müsbət qiymətləndirib, həmçinin onları narahat edən problemlərə toxunublar.

Müraciətlər kəndə təbii qaz xəttinin çəkilməsi, su keçidinin təmiri, Xoşbulaq-Qabaqtəpə avtomobil yolunun əsaslı təmiri, çayın məcraya salınması, kənd xəstəxanasının ixtisaslı kadrlarla təmin olunması və şəxsi problemlərdən ibarət olub.

Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev qaldırılan məsələlərin və müraciətlərin araşdırılaraq həll olunması üçün aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə tövsiyə və tapşırıqlarını verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin əksəriyyəti yerindəcə həll edilib.

Kənd sakinləri hər zaman onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

DAŞKƏSƏNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 95-Cİ İLDÖNÜMÜMÜ BÖYÜK EHTİRAMLA QEYD EDİLMİŞDİR

Mayın 10-da Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyevin, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərlərinin, çoxsaylı YAP üzvlərinin, ağsaqqallar və ziyalıların, ictimaiyyət nümayəndələrinin iştirakı ilə ulu öndər Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri qoyulmuş, ümummilli liderin nurlu, işıqlı xatirəsi dərin hörmətlə yad edilmişdir.

Tədbir iştirakçıları Daşkəsən Rayon Heydər Əliyev Mərkəzində ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini özündə əks etdirən fotolara və eksponatlara baxış keçirmişlər.

Ümumrayon tədbiri Rayon İcra Hakimiyyətinin iclas zalında davam etmişdir.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin müasir Azərbaycanın inkişafı və müstəqilliyi naminə gördüyü işlərdən, apardığı mübarizələrdən bəhs edən "Böyük ömrün anları" filmi nümayiş olunmuşdur.

Daha sonra Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev dahi lider haqqında geniş və dərin məzmunlu nitq söyləyərək müasir Azərbaycanın memarı, qurucusu və xilaskarının ölkəmiz üçün tarixi, əvəzsiz xidmətlərindən, respublikamızın sabitliyi və dinamik inkişafında qoyduğu bünövrədən danışmışdır.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev çıxışında demişdir:

- Bu gün ölkəmizin bütün dövrlərdə ən müdrik dövlət başçısı, görkəmli siyasətçi, müasir Azərbaycanın qurucusu, Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 95-ci ildönümüdür. Düz 95 il bundan əvvəl qədim Naxçıvan torpağında dünyaya göz açmış Heydər Əliyevin böyük ürəyi həyatının bütün dövrlərində həmişə Azərbaycan xalqı üçün döyünmüş, o vətənə xidməti özünə daim borc bilmişdir.

Ulu öndər Heydər Əliyev Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət və xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxarmış, müstəqil Azərbaycanı, onun bugünkü həqiqətlərini, işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır. Azərbaycan xalqının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz onun adı ilə bağlıdır.

Ulu öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycanın rəhbəri təyin olunanda ölkəmiz keçmiş ittifaqın respublikaları içərisində ən aşağı iqtisadiyyata malik, geridə qalmış bir əyalət statusunda idi.

Onun 1969-1982-ci illərdə Azərbaycanın rəhbəri kimi gördüyü işlər xalqın yaddaşının özünə qayıdışı, milli özünüdərkin, milli ruhun hədsiz yüksəlişinin təmin olunması baxımından böyük əhəmiyyət kəsb edir.

Dahi şəxsiyyət Heydər Əliyevin sarsılmaz polad iradəsi və qətiyyəti, xalqın tərəqqisi yolunda yorulmaq bilmədən çalışması, fədakar əməyi, gərgin fəaliyyəti nəticəsində Azərbaycanda coşqun quruculuq işlərinə başlandı, sənaye və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahəsində böyük uğurlar əldə edildi. Azərbaycan aqrar ölkədən iri sənaye ölkəsinə, xammal bazasından istehsalçıya çevrildi.

Ulu öndər Heydər Əliyev sovet rejiminin xalqımızı necə sıxdığını, inkişafına hər vasitə ilə mane olduğunu açıq-aydın görürdü. Amma ümummilli liderimizin sonralar dediyi kimi bu rejimə açıq-aşkar qarşı çıxmaqla həmin dövrdə heç nəyə nail olmaq mümkün deyildi. Ən düzgün yol bu siyasətdə öz xalqına, vətəninə bacardığın qədər çox xidmət göstərmək idi. Bu dahi şəxsiyyət mübarizələrlə dolu həyatı ilə sübut etdi ki, həmin dövrün bütün çətinliklərinə baxmayaraq, vətən üçün, xalq üçün çox böyük işlər görmək mümkündür.

Azərbaycanın bugünkü zəngin elmi, iqtisadi, mədəni, kadr potensialının təməlində Heydər Əliyevin həmin illərdə apardığı milli quruculuq işləri dayanır. Elmə, təhsilə xüsusi diqqət yetirən Heydər Əliyev 70-ci illərdə hər il 2 min nəfərə qədər gənci müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ayrı-ayrı şəhərlərinə göndərirdi.

1973-cü ildə bir çox çətinliklər bahasına Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması keçmiş ittifaq miqyasında böyük hadisə idi. Ümummilli liderimiz Azərbaycanın müstəqilliyinə inandığı üçün gələcək dövlətimizin hərbi potensiala ehtiyacını nəzərə alıb bu addımı atmışdı. Hadisələrin sonrakı inkişafı bu dahi şəxsiyyətin uzaqgörənliyini bir daha sübut etdi. Müstəqil dövlətin gənc ordusu məhz həmin məktəbin yetirdiyi hərbi kadrların bilik və təcrübəsi sayəsində formalaşmağa başladı.

1969-1982-ci illərdə Azərbaycanda çoxsaylı strateji əhəmiyyətli sənaye və istehsal müəssisələri açıldı, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edildi, yeni-yeni yaşayış massivləri salındı, yollar tikildi, ucqar rayonlara qaz xətləri çəkildi.

Vətənini, xalqını hədsiz məhəbbətlə sevən böyük öndərimizin bilavasitə şəxsi təşəbbüsü ilə müasir Azərbaycan memarlığının şah əsərləri sayılan və respublikamızın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan saraylar, neçə-neçə möhtəşəm binalar inşa edildi, xalqımızın tarixində mühüm rol oynamış görkəmli şəxsiyyətlərə, ədəbiyyat və incəsənət xadimlərinə əzəmətli heykəllər ucaldıldı.

1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur.

Həmin dövrdə Heydər Əliyev heç bir qüvvənin onun zəngin, tükənməz və hərtərəfli dövlət idarəçiliyi istedadının qarşısını almağa qadir olmamasını bir daha da sübut etməklə, xalqımızın fəxrinə çevrildi. Bu nəhəng imperiyanın ən ağır sahələrinin idarə edilməsində böyük uğurlara nail olan ulu öndər Azərbaycanı öz timsalında bütün dünyaya tanıtdı.

Sovet dövlətinin başçısı Mixail Qorbaçov bu qədər nüfuzlu, istedadlı dövlət xadiminə, onun səmərəli fəaliyyətinə böyük qısqanclıqla yanaşırdı. 1987-ci ilin oktyabrında Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, partiya və tutduğu vəzifələrdən istefa verdi. Heydər Əliyev SSRİ rəhbərliyində ikən Azərbaycan əleyhinə çirkin niyyətlərin həyata keçirilməsinin qeyri-mümkünlüyünü başa düşən ermənipərəst məkrli qüvvələr onun vəzifədən uzaqlaşdırılmasına nail oldular.

Belə bir şəraitdə bu polad iradəli insan xalqının ağır vəziyyətində onunla bir yerdə olmaq üçün bütün məhrumiyyətlərə qalib gəldi və həmin vaxtlar tarixinin ən ağır zamanını yaşayan Naxçıvana dönməyə nail oldu.

Həmin dövrə nəzər salarkən dövlət müstəqilliyimizin ilk addımlarının məhz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda atıldığının şahidi oluruq. Onun rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının adından "sovet sosialist" sözləri çıxarıldı, üçrəngli milli bayrağımız ilk dəfə Naxçıvanda dövlət bayrağı kimi qəbul olundu, dünya azərbaycanlılarının həmrəyliyi günü müəyyən edildi, 20 Yanvar faciəsinə siyasi qiymət verildi, SSRİ-nin saxlanılması barədə referendumdan imtina edildi, mühüm imperiya strukturlarının fəaliyyəti dayandırıldı, ilk dəfə olaraq sovet qoşun hissələri Muxtar Respublikadan çıxarıldı.

1991-ci ildə Azərbaycanda təhlükəli bir vəziyyət yaranmışdı. Ölkədə müharibə gedirdi. İdarəçilik isə yox dərəcəsindəydi. Respublikada xaos, anarxiya hökm sürürdü. İqtisadiyyat bərbad hala düşmüşdü, Heydər Əliyevin qurub-yaratdığı iqtisadi potensial amansızcasına dağıdılırdı.

Təşviş içərisində olan Azərbaycan xalqının sabaha ümidi sarsılmış, ölkəmiz real vətəndaş müharibəsi, qardaş qırğını və separatçılıq meylləri ilə üz-üzə qalmışdı. Yenicə müstəqillik əldə etmiş ölkəmiz onu itirmək təhlükəsində idi.

Yeganə nicat yolunu Heydər Əliyevin qayıdışında görən Azərbaycan xalqı onu təkidlə hakimiyyətə çağırırdı, amma şəxsi ambisiyalarını milli maraqlardan üstün tutan AXCP-Musavat hakimiyyət hərisləri bütün gücləri ilə buna mane olur, silahlı dəstələr yaradırdılar.

Heydər Əliyev 1993-cü ilin iyununda 2-ci dəfə hakimiyyətə qayıdanda ölkədə hakimiyyətsizlik, özbaşınalıq, hərc-mərclik son həddə çatmışdı. Fürsətdən istifadə edən erməni hərbi birləşmələri torpaqlarımızı işğal edir, yüz minlərlə soydaşlarımız öz dədə-baba torpaqlarında qaçqına, didərginə çevrilirdi.

1993-cü ildən başlayaraq ümummilli liderimiz Heydər Əliyevin həyata keçirdiyi xilaskarlıq missiyası nəticəsində Azərbaycan məhv olmaq təhlükəsindən xilas oldu, inkişaf edən demokratik-hüquqi, sivil bir dövlətə çevrildi. Qısa müddət ərzində ölkədə vətəndaş müharibəsinin qarşısı alındı, dövlətçiliyə meydan oxuyan silahlı birləşmələr ləğv edildi, ictimai-siyasi sabitlik yaradıldı. Ölkənin xarici siyasəti milli maraqlarımıza uyğun quruldu, uğurlu neft strategiyası müəyyən edilib həyata keçirilməyə başlandı, ictimai həyatımızın bütün sahələrində hərtərəfli demokratik islahatlar aparıldı. Söz və mətbuat azadlığı təmin edildi, Şərqdə ilk dəfə Azərbaycanda ölüm cəzası ləğv edildi. Əlbəttə, bütün bunların heç biri asan başa gəlmədi.

Bu böyük dövlət adamının irəli sürdüyü Azərbaycanın gələcəyinə hesablanmış strategiya indiki nəslin gözü önündə reallığa çevrilmişdir. Heydər Əliyev dühasının məhsulu olan "Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri kimi qlobal layihələrin gerçəkləşməsi, ölkəmizə milyardlarla dollar xarici sərmayənin gəlməsi dövlətimizin iqtisadi qüdrətinin sarsılmaz əsaslarını qoymuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin 95 illik yubileyi həm də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümünə təsadüf edir. Biz hər iki yubiley barədə düşüncələrimizi bölüşərkən təbii olaraq müasir dövlətçiliyimizin yaranmasını, müstəqilliyimizin möhkəmləndirilməsini və bu yolda Heydər Əliyevin müstəsna tarixi xidmətlərini bir-biri ilə əlaqələndiririk. Çünki belə olmadan müasir Azərbaycan tarixinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması yarımçıq alınardı.

Ömrünün son günlərində isə ulu öndər xalqımıza daha bir xeyirxahlıq edərək öz siyasi varisini bizə ərməğan etdi. Onun siyasi və mənəvi keyfiyyətləri haqqında: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" - deyən Heydər Əliyev, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin respublikamızın bütün sahələrinin inkişafında böyük uğurlara imza atacağını qətiyyətlə bildirirdi. Ümummilli lider Heydər Əliyevin çox hörmətli cənab İlham Əliyev haqqında dediyi sözlərin böyük bir həqiqət olduğu bu gün real həyatda öz təsdiqini tapmışdır.

Ötən 15 ildə cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələr, Azərbaycanın hərtərəfli yeniləşməsi, müasirləşməsi, doğma vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradan müsbət dəyişikliklər ulu öndərin müəyyən etdiyi siyasi kursun davamından başqa cür qiymətləndirilə bilməz. Ölkəmizin dünya birliyində, beynəlxalq aləmdə öz yerini daha da möhkəmləndirməsi məhz Heydər Əliyevin zəngin ictimai-siyasi irsinin, ideyalarının yeni dövrün tələblərinə uyğun yaşadılmasının nəticəsidir. Son 15 ildə ölkə iqtisadiyyatı dünya dövlətləri üçün rekord həcmdə - 3,2 dəfə artıb, iqtisadiyyatımıza 230 milyard dollardan artıq sərmayə qoyulub.

Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə təkcə 2017-ci ildə əldə edilmiş uğurlara nəzər salaq: mühüm geostrateji əhəmiyyətə malik olan Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, "Azəri-Çıraq-Günəşli" neft yataqları blokunun işlənilməsinin 2050-ci ilədək uzadılması, mühüm iqtisadi-tarixi hadisə olan iki milyard ton neftin hasil olunması, "Şimal-Cənub nəqliyyat dəhlizi"nin açılması istiqamətində addımların atılması, 50 çox ölkənin iştirak etdiyi ilin ən böyük idman hadisəsi - Dördüncü İslam Həmrəyliyi Oyunlarına Azərbaycanın uğurla ev sahibliyi etməsi və sair...

Xalqımız ümummilli liderimizə həm də ona görə minnətdardır ki, İlham Əliyevi xalqımıza bəxş etdi. Çünki məhz möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sayəsində bu gün Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf kursunu daha da zənginləşdirən cənab İlham Əliyevin siyasi iradəsi, zəngin dövlətçilik təcrübəsi, xalqa olan dərin məhəbbəti, vətənpərvərliyi müstəqil Azərbaycan dövlətinin gələcək inkişafına təminat verən yeganə amildir.

Azərbaycan xalqı dövlətimizin əldə etdiyi bütün uğurlara görə ulu öndər Heydər Əliyevə minnətdardır. Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövləti bundan sonra da böyük inkişaf yolu keçəcək, ulu öndər Heydər Əliyevin bütün arzularını gerçəyə çevirəcəkdir.

Mən ümummilli liderimiz Heydər Əliyevin hələ sovetlər dövründə Respublikamıza rəhbərlik etdiyi vaxtda əmək fəaliyyətimə başlamışam, müxtəlif vəzifələrdə işləmişəm. Müstəqillik illərində isə Yeni Azərbaycan Partiyasının yaradıcısı və lideri ulu öndərin xeyir-duası ilə birinci və ikinci çağırış Milli Məclisə deputat seçilmişəm. Üçüncü dəfə millət vəkili seçilməyim hörmətli dövlət Başçımız cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə olub. Qürur hissi ilə bildirirəm, mən xoşbəxtəm ki, vaxtilə Ulu Öndərimizin mənə göstərdiyi etimadı bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev göstərir və onun rəhbərliyi altında işləyirəm. Bu mənim üçün böyük fəxr və şərəfdir!

Hər zaman Heydər Əliyev siyasi kursuna sadaqətli olan daşkəsənlilər 2018-ci ilin aprelin 11-də prezident seçkilərində yüksək mütəşəkkillik, siyasi fəallıq nümayiş etdirərək bu kursun ən layiqli davamçısı olan Yeni Azərbaycan Partiyasının vahid namizədi möhtərəm cənab İlham Əliyevə - inkişafa, tərəqqiyə, sabitliyə, daha güclü və qüdrətli Azərbaycana səs verdilər. Həmin gün xalq və dövlət həmrəyliyinin, xalqın öz rəhbərinə inamının, etimadının və etibarının nümayişi gününə çevrildi. Daşkəsənlilər hələ də ötən Prezident seçkilərinin uğurlu yekunlarından doğan xoş ovqatı yaşayırlar.

Həyatının mənasını xalqa ləyaqətlə xidmət etməkdə görən ulu öndər vaxtilə belə demişdir: "Mən həmişə xalqa arxalanmışam, xalqa bel bağlamışam... Mənim həyatım həmişə xalqla bir yerdə olub, bu gün də bir yerdədir, sabah da bir yerdə olacaqdır".

Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaqdır.

Yaşasın Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Əliyevin ideyaları!

Ulu öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevə eşq olsun!

Elmar Vüqarlı
Azərbaycan Yazıçılar Birliyinin üzvü

DAŞKƏSƏNDƏ "TURİZM VƏ KƏND TƏSƏRRÜFATI SAHƏSİNDƏ DÖVLƏT VƏ ÖZƏL SEKTOR ƏMƏKDAŞLIĞININ ƏSAS PRİNSİPLƏRİ" MÖVZUSUNDA TƏLİM KEÇİRİLİB

Mayın 14-də Daşkəsən Rayon İcra Hakimiyyətinin akt zalında Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) tərəfindən həyata keçirilən "Gəncə-Qazax İqtisadi rayonunda yerli və regional inkişafa dəstək" layihəsi çərçivəsində Daşkəsəndə yaradılacaq turizm-rekreasiya zonasının işçi qrupuna "turizm və kənd təsərrüfatı sahəsində dövlət və özəl sektor əməkdaşlığının əsas prinsipləri" mövzusunda təlim keçirilib.

Təlimdə Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev Daşkəsənin turizmi barədə geniş məlumat verib. O deyib ki, elmi əsaslarla işlənmiş, müvafiq yuxarı orqanlarla razılaşdırılmış proqram xarakterli mükəmməl "Yeni Daşkəsən" layihəsində rayonun turizm potensialından səmərəli istifadə edilməsi prioritet kimi qarşıya qoyulmuşdur. Ötən dövrlərdə bu istiqamətdə bir sıra ciddi işlər görülüb və həmin işlər yüksək səviyyədə davam etdirilir.

Əhəd Abıyev qeyd edib ki, Daşkəsən rayonunun özünəməxsus torpaq-bitki örtüyü və heyvanat aləmi vardır. Rayon ərazisi dağlarla əhatə olunmuşdur. Rayona xüsusi gözəllik verən yol boyunca uzanan qalın və seyrək meşələr mövcuddur. İnsan sağlamlığı üçün xüsusi əhəmiyyət kəsb edən müalicəvi bitkilər vardır. Mənbəyini dağlardan götürən Qoşqar, Gəncə, Şəmkir və Ballıca çayları, habelə kiçik dağ çayları qızılxallı forel balıqları ilə zəngindir. Turizm üçün xarakterik olan Zivlən və Astaf kəndlərindəki eyni adlı iki göl - Göy-göl olduqca ecazkardır.

Rayon İcra Hakimiyyətinin Başçısı Daşkəsənin tarix-mədəniyyət abidələri barədə də danışıb. Diqqətə çatdırıb ki, yerli və ölkə əhəmiyyətli 71 tarix və mədəniyyət abidəsindən 46 abidə AMEA-nın Elmi-arxeologiya tədqiqat institutu tərəfindən artıq qeydiyyata alınmışdır. Dəniz səviyyəsindən 3361 metr yüksəklikdə yerləşən, el arasında pir kimi tanınan ziyarətgah Qoşqar dağının zirvəsində yerləşir. Əmirvar kəndində "Yastı qaya" adlanan mənzərəli guşə hər tərəfdən sıx meşəliklə əhatə olunub. "Ləzgi qayası", "Qara inək" zağası, "Yol yurdu" qalaçası (Dəmir dövrü), "Dardərə" qalaçası məşhurdur. Dəstəfur kəndi ərazisində yerləşən "Gəlin qaya" təbiət abidəsi ziyarətçilərdə böyük maraq doğurur.

Rayon rəhbəri bildirib ki, Daşkəsən rayonu ərazisində qeydə alınmış tarix-memarlıq və mədəniyyət qoruğu yoxdur. Lakin rayonun Bayan kəndi tarix-memarlıq və mədəniyyət qoruğu elan edilə bilər. Bayan kənddəki tikililərin ərazinin landşaftına uyğun amfiteatr formasında inşası, dağların ətəyində - sal qayaların üzərində salınması ekzotik təsir bağışlayır. Qədim alban mədəniyyətinin və memarlıq sənətinin inkişafından xəbər verən Bayan kəndi ərazisindəki alban məbədləri öz görkəmini saxlamaqla günümüzə qədər gəlib çatmışdır. Bayan kəndində yerləşən XV əsrə aid edilən körpü, VII əsrə aid edilən Alban Həvari kilsəsi və IV-V əsrə aid edilən Çiçivəng monastırı böyük tarixi əhəmiyyətə malik olmaqla yanaşı, həmçinin turistik cəhətdən də cəlbedicidir.

Gəncə-Daşkəsən avtomobil yolunun dağ zirvələrinə doğru yüksələn xətlə sıldırımlı ərazilərdən keçməsi, zirvələrdən üfüqlərə və dərələrə açılan ürəkaçan mənzərələr, "Daşkəsən Filizsaflaşdırma" ASC-yə məxsus asma kanat yolu rayona gələnlərə xoş təəssüratlar bağışlayır.

Müalicəvi təmiz havası ilə dünyada məşhur olan xüsusilə Xoşbulaq yaylağı, dünya, ölkə və yerli əhəmiyyətli tarixi və təbii abidələri ilə zəngin olan Dəstəfur, Çovdar, Quşçu, Bayan, Qabaqtəpə, Əmirvar, Zəylik, Çanaqçı, Zivlən, Muşavaq kəndləri bu bölgədə böyük perspektivi olan turistik məkanlardır.

Ə.Abıyev vurğulayıbdır ki, rayonda kənd turizmi, yaşıl turizm pərakəndə şəkildə inkişaf etmişdir. Ekoturizm, dağ turizmi, alpinizm turizmi, aqroturizm növlərini inkişaf etdirmək üçün əlverişli şərait mövcuddur. Rayonun bu sahəsinə vaxtilə investorların diqqət göstərməməyi, həmçinin infrastrukturun lazımi səviyyədə olmaması həmin turizm imkanlarından istifadə edilməsinə maneə yaratmışdır. Lakin bu sahə hər zaman rayon rəhbərliyinin diqqət mərkəzindədir. Rayon İcra Hakimiyyəti tərəfindən aidiyyəti qurumlar qarşısında vaxtaşırı bu xüsusda məsələlər qaldırılmışdır. 2014-cü ildə tikintisi başa çatdırılmış və ölkə Başçısı cənab İlham Əliyev tərəfindən 17 oktyabr 2014-cü ildə açılışı olmuş Xoşbulaq kəndi ərazisində yerləşən Daşkəsən Gənclərinin Təlim və İstirahət Mərkəzi bu sahədə son illərdə atılmış ən önəmli addımlardan biridir.

Çıxışının sonunda təlim keçəcək işçi qrupuna uğurlar arzulayan Əhəd Abıyev deyib ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları çərçivəsində son illər Daşkəsənin də siması müasirləşərək gözəlləşib, ən əsası isə yol infrastrukturu əhəmiyyətli dərəcədə yeniləşib, kəndarası yollar təmir edilib, böyük nailiyyətlər əldə olunub. Yaxın günlərdə isə "Daşkəsən Filizsaflaşdırma" ASC-nin yenidən fəaliyyətə başlaması nəticəsində rayonun bütün sahələrində, o cümlədən turizm sahəsində böyük canlanma yaranacaqdır.

Daha sonra beynəlxalq dərəcəli turizm mütəxəssisi Knut Gerber, layihənin məsləhətçisi Mehdi Abdullayev "turizm və kənd təsərrüfatı sahəsində dövlət və özəl sektor tərəfdaşlığının əsas prinsipləri" mövzusunda turizm-rekreasiya zonasının işçi qrupuna müvafiq məlumatlar veriblər.

Görüləcək işlər nəticəsində gözlənilən perspektivlər barədə geniş məruzə ilə çıxış edən layihənin koordinatoru Fariz Qarayev yaxın gələcəkdə işçi qrupunun Daşkəsənin turizminə



Rayon Heydər Əliyev Mərkəzi tərəfindən hazırlanmış və kodlaşdırılmış xüsusi dəftərlərdə yazılıb. Yazıların yoxlanılması müəllimlərindən ibarət münsiflər heyətinə həvalə edilib.

Daşkəsən rayon orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri arasında keçirilən inşa müsabiqəsində rayonun 15 ümumtəhsil məktəbindən 25 nəfər şagird iştirak edib.

Müsabiqənin nəticələrinə əsasən I, II, III yerlərə layiq görülmüş məktəblilər mükafatlandırılıblar.

Orxan Həsənov
RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi

DAŞKƏSƏNDƏ 9 MAY - QƏLƏBƏ GÜNÜ MÜNASİBƏTİLƏ BÖYÜK VƏTƏN MÜHARİBƏSİ İŞTİRAKÇISININ BAYRAMI EVİNDƏ TƏBRİK EDİLDİ

Daşkəsən rayonunda müharibə iştirakçılarına həmişə böyük diqqət və qayğı vardır. Rayon İcra Hakimiyyəti digər əlaqədar təşkilatlar ilə birlikdə müharibə veteranlarının problemlərinin həllinə, onların müalicəsinin təşkilinə daim yaxından köməklik göstərir.

Hazırda rayonda bir nəfər Böyük Vətən müharibəsi iştirakçısı yaşayır.

Mayın 9-da Rayon İcra Hakimiyyəti Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Daşkəsən rayon bölməsinin təşkilatçılığı əsasında ictimaiyyət nümayəndələri İkinci Dünya Müharibəsində alman faşizmi üzərində qələbənin 73 illiyi münasibətilə Yuxarı Daşkəsən qəsəbəsində yaşayan Böyük Vətən müharibəsi veteranı Əhmədov İdris Kərəm oğlunun bayramını evində təbrik ediblər.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyevin təbriklərini və bayram hədiyyəsini 93 yaşlı İdris Əhmədova çatdıran Rayon İcra Hakimiyyətinin məsul əməkdaşı Elmar Əliyev görüşdə deyib: "Bəşər tarixində ən dəhşətli və qanlı savaş olmuş bu müharibədə Azərbaycan xalqı da başqa xalqlarla çiyin-çiyinə dözüm, cəsarət, yenilməzlik və igidlik nümayiş etdirib. Müharibə dövründə 700 min həmvətənimiz cəbhəyə gedib, onların yarıdan çoxu döyüş meydanlarında qəhrəmancasına həlak olub. 130-a yaxın həmvətənimiz Böyük Vətən müharibəsi illərində göstərdiyi igidliyə görə Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülüb. Ölkəmiz üçün o mürəkkəb və çətin dövrdə Bakıdakı sənaye müəssisələrinin əksəriyyətində hərbi məhsullar buraxılırdı. Bu müəssisələrdə 130 növdən çox silah və sursat istehsal olunurdu. Cəbhənin neft və neft məhsulları ilə əsas təchizatçısı məhz Azərbaycan idi. Bütün ölkədə istehsal edilən yanacağın 80 faizi respublikamızın payına düşürdü. 9 May günü bizdə əvvəlki kimi ölkənin ən mötəbər dövlət bayramı olaraq qalır. Müharibə və əmək veteranları dövlətimizin gündəlik qayğısını hiss edirlər. Azərbaycan Prezidenti cənab İlham Əliyev veteranların sosial müdafiəsi məsələsini daim öz nəzarətində saxlayır: veteranlara prezident təqaüdü ödənilir, müntəzəm olaraq onlara mənzil və avtomobillər ayrılır, digər güzəştlər şamil edilir".

Sağlamlıq durumu yerində olan veteranla çay süfrəsi arxasında səmimi söhbət aparılıb. Müharibə illəri ilə bağlı xatirələrini bölüşən Berlinə qədər döyüş yolu keçmiş İdris Əhmədov ona hər zaman göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıq edib. O əminliklə bildirib ki, tezliklə qüdrətli ordumuz Ali Baş Komandanımız möhtərəm cənab İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı düşmən işğalından azad edəcəkdir.

Sonda veteranla xatirə şəkli çəkilib.

Sahib ƏHMƏDOV
RİHBA-nın Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri

"HEYDƏR ƏLİYEV VƏ MÜASİR AZƏRBAYCAN"

Daşkəsən Rayon İcra Hakimiyyəti xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə silsilə tədbirlər keçirib.

Tədbirlər çərçivəsində mayın 7-də rayonunun orta ümumtəhsil məktəblərinin şagirdləri arasında "Heydər Əliyev və müasir Azərbaycan" mövzusunda inşa-yazı müsabiqəsi keçirilib.

Müsabiqə Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Rayon Heydər Əliyev Mərkəzi tərəfindən təşkil olunub.

Tədbirin açılış mərasimində çıxış edən Daşkəsən Rayon İcra Hakimiyyətinin məsul əməkdaşı Elmar Əliyev Ümummilli lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı böyük tarixi xidmətlərindən, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi və qüdrətlənməsi yolunda apardığı çoxşaxəli uğurlu siyasi fəaliyyətindən danışıb.

Rayon Gənclər və İdman idarəsinin rəisi Samir Həsənov məktəblilərə uğurlar diləyərək onların ulu öndər Heydər Əliyevin ideyalarına sədaqət ruhunda böyümələri üçün bu cür tədbirlərin əhəmiyyətini xüsusi vurğulayıb.

Heydər Əliyev Mərkəzinin direktoru Nailə Məmmədova isə çıxışında ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclər arasında geniş təbliği məqsədilə müxtəlif maarifləndirici tədbirlərin keçirildiyini diqqətə çatdırıb. O bildirib ki, belə müsabiqələr həm də məktəblilərin ədəbi dilin normalarına uyğun yazmaq və öz fikirlərini sərbəst bildirmək bacarıqlarının təkmilləşdirilməsinə mühüm töhfə verir.

Qaydalar elan olunduqdan sonra müsabiqəyə start verilib. İnşa yazıları Rayon Heydər Əliyev Mərkəzi tərəfindən hazırlanmış və kodlaşdırılmış xüsusi dəftərlərdə yazılıb. Yazıların yoxlanılması müəllimlərindən ibarət münsiflər heyətinə həvalə edilib.

Daşkəsən rayon orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri arasında keçirilən inşa müsabiqəsində rayonun 15 ümumtəhsil məktəbindən 25 nəfər şagird iştirak edib.

Müsabiqənin nəticələrinə əsasən I, II, III yerlərə layiq görülmüş məktəblilər mükafatlandırılıblar.

Orxan Həsənov
RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi

DAŞKƏSƏNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 95-Cİ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ ÜMUMRAYON BİRİNCİLİYİNƏ YEKUN VURULUB

Daşkəsən Rayon İcra Hakimiyyəti, Təhsil Şöbəsi, Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə rayonun ümumtəhsil məktəbliləri arasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş voleybol, şahmat, stolüstü tennis və Yunan-Roma güləşi idman növləri üzrə rayon birinciliklərı keçirilib.

Yarışların keçirilməsində məqsəd Ulu Öndər Heydər Əliyevin 95 illiyini qeyd etmək, müvafiq idman növlərinin təbliğinə və inkişafına nail olmaq, rayon idmançılarının Respublika birinciliklərinə hazırlığını daha da yüksəltmək, o cümlədən də idmançılar arasında dostluq əlaqələrini möhkəmləndirmək olmuşdur.

Şahmat üzrə yarışlar 23-28 aprel tarixlərdə Rayon Uşaq Gənclər İdman Şahmat Məktəbində keçirilmişdir. Yarışda 24 nəfər iştirak etmiş, qaliblər müəyyənləşdirilmişdir.

Stolüstü tennis üzrə yarışlar 27-29 aprel tarixlərdə Daşkəsən rayon Uşaq Gənclər İdman Məktəbinin idman zalında keçirilmişdir. Yarışda 32 nəfər iştirak etmişdir. Gərgin keçən mübarizədən sonra Daşkəsən şəhərə İ.Nəsimi adına 1 saylı tam orta məktəbin şagirdi Əlizadə Elariz Hafiz oğlu birinci yerə, A.Mürsəlov adına 2 saylı tam orta məktəbin şagirdləri Məmmədov Fuad İnqilab oğlu ikinci yerə, Qurbanov Elvin Həmid oğlu isə üçüncü yerə layiq görülmüşdür.

Yunan-Roma güləşi üzrə yarışlar 1-2 may tarixlərdə Daşkəsən rayon Uşaq Gənclər İdman Məktəbinin idman zalında keçirilmişdir. Yarışda ümumilikdə 12 çəki dərəcəsi üzər 67 nəfər iştirak etmişdir. Müxtəlif çəki üzrə qaliblər müəyyən edilmişdir.

Voleybol üzrə yarışlar 7-9 may tarixlərdə Daşkəsən şəhər S.Vurğun adına 4 nömrəli tam orta məktəbin idman zalında keçirilmişdir. Yarışda ümumtəhsil məktəblərindən 10 komanda olmaqla 109 nəfər iştirak etmişdir. Ümumtəhsil məktəblərinin komandaları arasında Daşkəsən şəhər İ.Nəsimi adına 1 saylı tam orta məktəbin komandası birinci, S.Vurğun adına 4 saylı tam orta məktəbin komandası ikinci, Quşçu kənd Ə.İsmayılov adına tam orta məktəbin komandası isə üçüncü yerə layiq görülmüşdür.

QALİBLƏRİN MÜKAFATLANDIRMA MƏRASİMİ KEÇİRİLİB

Mayın 15-də isə Daşkəsən Rayon Heydər Əliyev Mərkəzində yarış qaliblərinin mükafatlandırma mərasimi keçirilib. Mərasimdə Rayon İcra Hakimiyyətinin məsul işçiləri, Gənclər və İdman İdarəsinin, Təhsil Şöbəsinin əməkdaşları, həmçinin rayonun veteran idmançıları, məşqçilər, müəllimlər, şagirdlər, valideynlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Birinciliyin mükafatlandırma mərasimində çıxış edən Daşkəsən rayon Gənclər və İdman İdarəsinin rəisi Samir Həsənov deyib ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi uzun illər ərzində bədən tərbiyəsi və idmana xüsusi qayğını öz üzərinə götürdüyünü bütün ölkəyə bəyan etməklə təkcə həyatın bu mühüm tərkib hissəsinə necə böyük əhəmiyyət verdiyini bir daha diqqətə çatdırmadı, həm də bütün idman ictimaiyyətimizi ruhlandırdı, hamını problemlərin aradan qaldırılmasına, qarşıda duran mühüm vəzifələrin yerinə yetirilməsinə və beləliklə də, respublikamızın dünyanın idman mərkəzlərindən birinə çevrilməsi işinə səfərbər etmiş oldu. Ulu öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası bu gün onun layiqli varisi - möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Artıq Azərbaycan dünyada idman ölkəsi kimi tanınır, mötəbər beynəlxalq yarışlar ölkəmizdə keçirilir.

Çıxışının sonunda S.Həsənov yaradılan hər cür şəraitə görə ilk öncə ölkə Başçısı cənab İlham Əliyevə rayonun bütün idman ictimaiyyəti adından minnətdarlıq edib. Eyni zamanda da yarışların yüksək səviyyədə təşkilində göstərdiyi qayğıya, verdiyi dəstəyə görə Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyevə təşəkkürünü ifadə edərək rayonun idman şərəfini bundan sonra da layiqincə qoruyacaqlarına bütün rayon idmançıları adından bir daha əminlik bildirib.

Yarışlarda fərqlənən idmançılar və qalib gələn komandalar rayon Gənclər və İdman idarəsi tərəfindən diplom, kubok və hədiyyələrlə mükafatlandırılıblar.

Sonda xatirə şəkli çəkilib.

Etibar VERDİYEV
Rayon Gənclər və İdman idarəsinin idman sahəsi üzrə baş məsləhətçisi

AZƏRBAYCAN ƏDLİYYƏSİNİN 100 İLLİK YUBİLEYİ

Dövlətçilik tariximizdə özünəməxsus yeri olan Azərbaycan ədliyyəsinin 100 illik yubileyi barəsində söhbət açmaq olduqca fərəhlidir.

Bir əsr zəngin inkişaf yolu keçən Azərbaycan ədliyyəsinin şanlı tarixi 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gündə Ədliyyə Nazirliyinin təsis edilməsi ilə başlamış, təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuşdur. Həmin il noyabrın 22-də nazirliyin Əsasnaməsi təsdiq edilmiş, funksiya və səlahiyyətləri müəyyən edilmişdir.

Həmin dövrə nəzər salanda şahidi oluruq ki, Ədliyyə Nazirliyi o vaxtlar şəraitin çətinliyinə, imkanların və kadrların məhdudluğuna baxmayaraq ölkənin ədliyyə sisteminin formalaşdırılması və inkişafı naminə xeyli iş görmüşdür. İlk növbədə ədliyyə, məhkəmə və istintaq strukturları bərpa edilmiş, respublikada qayda-qanunun bərqərar olması, yeni hüquq sisteminin təşkili ilə bağlı əhəmiyyətli qərarlar qəbul edilmiş, hüquqşünas kadrların hazırlanması və əhalinin hüquqi maarifləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Fəaliyyəti unudulmaz hadisələrlə zəngin olan Ədliyyə Nazirliyi çətin və mürəkkəb yollardan keçmişdir. 1920-ci ildə ölkə işğal edildikdən sonra milli dövlətçiliyin əsas sütunlarından olan Ədliyyə Nazirliyi ləğv edilərək əvəzində Xalq Ədliyyə Komissarlığı yaradılmış, səlahiyyətləri xeyli məhdudlaşdırılmış, iki dəfə ləğv olunaraq yenidən təsis edilmiş, funksiyaları ayrı-ayrı vaxtlarda prokurorluq, məhkəmə orqanlarına verilmişdir. Ədliyyə sisteminin stabil funksiya və struktura malik olmaması onun inkişafına ciddi əngəllər törətmişdir.

Uzun bir müddət keçdikdən sonra, nəhayət, Azərbaycan ədliyyəsi yalnız 1970-ci ildə özünün əsas prinsiplərini bərpa etməklə əvvəlki vəziyyətinə qayıda bildi. Bu da məhz respublikanın ozamankı rəhbəri ulu öndər Heydər Əliyevin ölkənin bütün sahələrində olduğu kimi, ədliyyə sistemində də mühüm islahatlar aparması, qətiyyətli və qorxmaz addımlar atması nəticəsində olmuşdu. Ulu öndərin bu qətiyyəti Azərbaycan Ədliyyəsinin inkişafına müstəqillik dövründə də ciddi təkan vermişdir. Belə ki, 1995-ci ilin noyabrında ilk parlamentin seçilməsi ilə eyni gündə müstəqil respublikamızın ilk Konstitusiyasının qəbul edilməsi, əsas qanunumuzda insan hüquq və azadlıqlarının qorunmasını təsbit edən maddələr, hüquq-islahatları komissiyasının yaradılması və səmərəli fəaliyyəti, nəhayət "Məhkəmələr və hakimlər haqqında" Qanunun qəbul edilməsi ölkədə ədliyyə sisteminin sürətli inkişafına zəmin yaratdı. Beləliklə, bütün bunların məntiqi sonluğu olaraq ümummilli lider Heydər Əliyev 22 noyabr 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi günün ədliyyə işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə 11 noyabr 2000-ci il tarixdə sərəncam imzaladı.

Ümummilli liderin dövlət quruculuğu xəttini uğurla davam və inkişaf etdirən cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyət göstərdiyi son 15 il ərzində Ədliyyə Nazirliyində və bütövlükdə ölkəmizin məhkəmə-hüquq sistemində əsaslı islahatlar aparılmış, yeni-yeni məhkəmə binaları tikilmiş, bu mühüm sahədə fəaliyyətin təkmilləşdirilməsi, ədliyyə orqanlarının inkişafı, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, müstəqil məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi üzrə genişmiqyaslı tədbirlər həyata keçirilmişdir.

"Məhkəmə-Hüquq Şurası haqqında" Qanunun qəbul edilməsi, "Məhkəmələr və hakimlər haqqında" Qanuna dəyişiklər edilməsi, "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikasının Qanunu, "Ədliyyə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi haqqında", "Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanları bu tədbirlərin bariz nümunəsidir.

Ədliyyə orqanlarının inkişafı, məhkəmə sisteminin müasirləşdirilməsi haqqında bir-birinin ardınca fərmanların imzalanması, yeni qurumların - Ədliyyə Akademiyasının, regional ədliyyə şöbələrinin, müxtəlif reyestrlərin yaradılması müasir Azərbaycan ədliyyəsi tarixində çox mühüm hadisələrdir.

Ötən ay ölkəmizin tarixində çox vacib ictimai-siyasi hadisə olan prezident seçkilərində qədirbilən Azərbaycan xalqının azad, şəffaf şəkildə öz iradəsini nümayiş etdirərək yüksək vətəndaş fəallığı ilə ulu öndərimizin siyasi kursunu, dövlət quruculuğu ideyalarını uğurla davam etdirən cənab İlham Əliyevi yenidən ölkə Prezidenti seçməsi həm də son 15 ildə görülən işlərə verilmiş ən böyük qiymətdir.

Əminik ki, xalqın yekdil dəstəyi ilə inamlı qələbə qazanmış Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin növbəti illərdə ölkəyə rəhbərliyi zamanı xalqımızın gələcəyinə yönələn və hərtərəfli inkişafı təmin edən islahatlar, mühüm sosial, iqtisadi infrastruktur layihələr uğurla davam etdiriləcək, müasir tariximizin daha möhtəşəm, şanlı səhifələri yazılacaq, daha yüksək zirvələr fəth ediləcəkdir.

Bütün bunlar builki yubileyimizə əlavə bayram qatmış, ədliyyə işçilərinin ikiqat sevincinə səbəb olmuşdur.

Ceyhun QURBANOV
Daşkəsən rayon Qeydiyyat şöbəsinin rəisi v.i.e.

DAŞKƏSƏN RAYON MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 95 İLLİYİ MÜNASİBƏTİLƏ TƏDBİR KEÇİRİLİB

Mayın 7-də Daşkəsən Rayon Mədəniyyət Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibəti ilə ulu öndərin şərəfli ömür yoluna həsr olunmuş tədbir keçirilib.

Daşkəsən Rayon İcra Hakimiyyəti ilə Rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə mədəniyyət, təhsil işçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər

Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra Rayon Mədəniyyət Mərkəzinin direktoru Mətanət Abdullayeva tədbiri açaraq ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti barədə geniş məruzə ilə çıxış edib. O həmçinin bildirib ki, tədbirin başlıca məqsədi Azərbaycanın hərtərəfli tərəqqisi yolunda böyük tarixi xidmətlər göstərmiş, dövlət müstəqilliyi və təhlükəsizliyinin qorunmasına əvəzsiz töhfələr vermiş ulu öndər Heydər Əliyevin vətənə sədaqət, xalqa fədakarlıqla xidmət nümunəsinin və zəngin irsinin gənc nəslə aşılanması və öyrədilməsidir.

Sonra söz yaradıcı kollektivlərə verilib.

Poeziya dərnəyinin üzvləri "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" adlı ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

Daşkəsən rayon uşaq incəsənət məktəbinin instrumental ansamblının və rəqs qrupunun üzvləri isə rəngarəng konsert proqramlarını nümayiş etdiriblər.

Tədbirin sonunda ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən kitablar sərgilənib.

Elmar Vüqarlı
Azərbaycan Yazıçılar Birliyinin üzvü

DAŞKƏSƏN RAYONUNUN BAYTARLARI TƏSƏRRÜFATLARDA PEYVƏNDLƏMƏ İŞLƏRİNƏ BAŞLAYIBLAR

Yaz fəslində xırda buynuzlu heyvanlar arasında ən çox rast gəlinən və yayılan infeksion xəstəliklərdən biri də bruselyozdur. Bunu nəzərə alan Daşkəsən rayonun baytarları təsərrüfatlarda peyvəndləmə işlərinə başlayıb. Kənd Təsərrüfatı Nazirliyi Yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti tərəfindən hazırlanan tədbirlər planına uyğun olaraq həyata keçirilən peyvəndləməyə rayonun 4 həkim baytar briqadası cəlb edilib.

Daşkəsən rayonunda hazırda 107 min xırda buynuzlu heyvan var və bütün heyvanlar bu ayın sonuna kimi peyvənd ediləcəkdir. Həmçinin törədici qoçlardan bruselyoz xəstəliyinin diaqnostikası məqsədilə qan nümunələri də götürülür. Peyvəndləmə işləri yekunlaşdıqdan sonra təlimata uyğun olaraq təsərrüfat yerləri dezinfeksiya edilir.

Daşkəsən Rayon Baytarlıq İdarəsinin rəisi Mərdan Abbasov deyib ki, Kənd Təsərrüfatı Nazirliyi Yanında Dövlət Baytarlıq Xidməti tərəfindən müvafiq dərmanlar verilir və hər bir dərmanın üzərində "satıla bilməz" qeydi vardır. Soyuq zəncir prinsipinə uyğun olaraq təsərrüfatlarda heyvanların göz damlası ilə profilaktik müayinəsi aparılır. Qan nümunələri götürüldükdən sonra Zona Baytarlıq Laboratoriyasında yoxlanılır. Əgər müsbət reaksiya baş verərsə, təlimata uyğun həmin heyvanlar təsərrüfatlardan çıxarılır. Peyvəndlənmə nəticəsində hazırda Daşkəsən rayonunda epizootik durum tam sabitdir, heç bir yoluxucu infeksion xəstəlik qeydə alınmamışdır.

Daşkəsənli təsərrüfat sahibləri ilin hər fəslində heyvanların vaxtlı-vaxtında peyvəndlənməsindən razılıqlarını bildiriblər.

Azər HACIYEV
RİHBA-nın Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin böyük məsləhətçisi

SADƏLƏŞDİRİLMİŞ VERGİ ÜZRƏ SABİT VERGİ MƏBLƏĞİ HAQQINDA

Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən 01 yanvar 2017-ci il tarixdən bəzi fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan fiziki şəxslər üçün sadələşdirilmiş vergi üzrə sabit vergi məbləği (sabit vergi) müəyyən edilmişdir. Sabit verginin ödəyicisi olan fiziki şəxs, əgər vergi orqanında uçota alınmamışdırsa, ilk növbədə qeydiyyatda olduğu ərazinin vergi orqanına və ya xidmət mərkəzinə müraciət etməli və VÖEN almalıdır.

Fiziki şəxs aidiyyəti fəaliyyətə başlayanadək, vergi orqanından "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" almalıdır. "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" almaq üçün vergi ödəyicisi həm qeydiyyatda olduğu, həm də fəaliyyət göstərdiyi ərazi üzrə vergi orqanına (xidmət mərkəzinə) müraciət edə bilər.

Toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət - 30 manat;

Fərdi foto, audio-video xidmətləri (foto studiyalar istisna olmaqla) sahəsində fəaliyyət - 30 manat;

Çəkməçi, pinəçi - 5 manat;

Saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri - 10 manat;

Fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşpaz, gözətçi və digər analoji işlər - 10 manat;

Nəqqaşlıq emalatxanalarının fəaliyyəti - 20 manat.

Ölkə üzrə tətbiq olunan əmsallar

Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) - 2;

Gəncə, Sumqayıt və Xırdalan şəhərlərində - 1.5;

Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan şəhərlərində - 1;

digər rayon (şəhər) və qəsəbələrdə (kəndlərdə) - 0.5.

Qeyd olunan fəaliyyət növləri ilə işçi cəlb etmədən fərdi qaydada məşğul olan fiziki şəxs vergi orqanına bəyannamə verilmədən aylıq "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" almalıdır, əks halda ona aşağıdakı məbləğdə maliyyə sanksiyası tətbiq edilir:

- təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 40 faiz miqdarında;

- təqvim ili ərzində belə hallara iki və daha çox dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 100 faizi miqdarında.

Əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin www.taxes.gov.az ünvanlı internet saytına, 195 nömrəli Çağrı Mərkəzinə, 12 saylı Ərazi Vergilər Departamentinin (Gəncə şəhəri, H.Əliyev prospekti, 87) Vergi ödəyicilərinə xidmət şöbəsinə və ya Gəncə şəhəri Yeni Gəncə qəsəbəsi Mehmandarov küçəsi 39, Goranboy rayonu H. Əliyev prospekti və Naftalan şəhəri İ.Həsənzadə küçəsi ünvanlarında yerləşən Vergi Ödəyicilərinə Xidmət Mərkəzlərinə iş günləri saat 09:00-dan 18:00-dək müraciət edə bilərsiniz.

12 saylı Ərazi Vergilər Departamenti

DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISI TƏRƏFİNDƏN 2018-Cİ İLİN İYUN AYINDA YERLƏRDƏ VƏTƏNDAŞLARIN SƏYYAR QƏBULLARININ KEÇİRİLMƏSİ

QRAFİKİ

Sıra №-si	Qəbulların keçiriləcəyi yaşayış məntəqələrinin adı	Qəbulların keçiriləcəyi yer	Nəzərdə tutulan keçirilmə tarixi	Qəbulda RİHBA-dan iştirak etməsi nəzərdə tutulan məsul şəxslər
1.	Muşavaq kəndi	Kənd tam orta məktəbinin binası	06.06.2018-ci il saat 11:00	C.Qocayev, S.Əhmədov
2.	Almalı kəndi	Kənd ərazisində açıq havada	13.06.2018-ci il saat 11:00	N.Süleymanov, M.Yolçuyev
3.	Bayan kəndi	Kənd mədəniyyət evinin qarşısı	20.06.2018-ci il saat 11:00	C.Qocayev, E.Şıxəliyev
4.	Çovdar kəndi	Kənd ərazisində açıq havada	27.06.2018-ci il saat 11:00	N.Süleymanov, S.Əhmədov

QEYD: Qəbulda rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak edəcəklər.

DAŞKƏSƏN RAYON PROKURORU TƏRƏFİNDƏN YERLƏRDƏ VƏTƏNDAŞLARIN SƏYYAR QƏBULLARININ HƏYATA KEÇİRİLMƏSİ

CƏDVƏLİ

Sıra №-si	Qəbulların keçiriləcəyi yaşayış məntəqələrinin adı	Qəbulun tarixi	Qəbulun keçiriləcəyi yer	Qəbulu həyata keçirən şəxs
1.	Qaraqullar kəndi	09.06.2018-ci il saat 15:00	İcra nümayəndəliyinin inzibati binası	Prokuror
2.	Əmirvar kəndi	23.06.2018-ci il saat 15:00	İcra nümayəndəliyinin inzibati binası	Prokuror

ELANLAR

***

Daşkəsən şəhər İ.Qayıbov küçəsi bina 31, mənzil 41-in Zeynalova Rita Tofiq qızının adına verilmiş 509 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Daşkəsən şəhər İ.Qayıbov küçəsi bina 30, mənzil 18-də qeydiyyatda olan İsayev Samir Mirhəmid oğlunun adına verilmiş 09.12.2009-cu il tarixli AB 255223 nömrəli sürücülük vəsiqəsi və hərbi bileti itdiyi üçün etibarsız sayılır.

***

İsgəndərov Fərhad Mikayıl oğlunun adına verilmiş Daşkəsən rayon Bayan kəndində yerləşən evin 316 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Daşkəsən şəhər İ.Qayıbov küçəsi bina 32, mənzil 11-in mərhum Abbasov Əkbər Həmzə oğlunun adına verilmiş 20.03.1995-ci il tarixli 850 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktor:
Elmar Əliyev

Telefon: (055) 803-03-17
(022) 215-52-83

Redaksiyanın ünvanı:
Daşkəsən şəhəri, H.Əliyev prospekti 2. "Daşkəsən" qəzetinin hesab nömrəsi: Kapital Bank Daşkəsən filialı h/h 33080019448400214184, VÖEN 4900026031, İndeks 66896 Lisenziya № 022637

Qəzet 1999-cu ildən Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib. Qeydiyyat № B437 Lisenziya seriya AB №022637.

Qəzet "Daşkəsən" qəzetinin kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan Nəşriyyatı"nın mətbəəsində çap olunmuşdur.

Sifariş: 1239
Tiraj: 500